


# Şərq qapısı

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 104(23.991)

7 iyun 2022-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Bakıda "Şərq Bazarı" kompleksi bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, "Şərq Bazarı" kompleksinin bərpa və yenidənqurması işləri icra olunarkən bir sıra nüanslara xüsusi diqqət yetirilib. Bərpa zamanı layihə komandasının qarşısında duran əsas vəzifələr ilkin konsepsiyanın qorunması və xüsusi elementlərin saxlanılması olub. Kompleksdə yenidənqurma zamanı yerli materiallardan maksimum istifadə edilib, həmçinin müasir texnologiya və avadanlıqların tətbiqinə xüsusi diqqət yetirilib.

Bildirilib ki, bazarda 78 icarədar fəaliyyət göstərəcək. Bu isə 300 yeni iş yerinin yaranması deməkdir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 4 iyun tarixli Sərəncamı ilə su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında "Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşları da vardır:

**Quliyev Sahəddin Həsənqulu oğlu**

**Məmmədov Anar Əli oğlu**

**Novruzov Elman Novruz oğlu**

**Rzayev Telman Qafar oğlu**

**Sadıqov Vilayət Vəliyullah oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

*7 iyun Ümumdünya Qida Təhlükəsizliyi Günüdür*

## Sağlam gələcəyə gedən yol həm də qida təhlükəsizliyindən keçir

***Birləşmiş Millətlər Təşkilatının 20 dekabr 2018-ci il tarixli Qərarı ilə 7 iyun Ümumdünya Qida Təhlükəsizliyi Günü kimi təsis edilib.***

Ölkəmizdə qida təhlükəsizliyi məsələsi milli prioritetlər səviyyəsində daim diqqətdə saxlanılmaqdadır. Belə ki, qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının gücləndirilməsi, əhalinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təminatı, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyinin daha da artırılması əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir. Ümummilli lider Heydər Əliyev ölkəmizdə yeyinti məhsullarının keyfiyyətinin idarə edilməsi, istehsalının və bazarının təşkili, əhalinin qida və ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində ardıcıl tədbirlər görmüş, bu sahədə qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması bu sahədə aidiyyəti orqanlar qarşısında konkret vəzifələr müəyyənləşdirir. Ölkənin qida təhlükəsizliyinin təmin edilməsi, ilk növbədə, əhalinin fəal sağlam həyat təminatı üçün olduqca vacib amildir.

Naxçıvan Muxtar Respublikasında da qida təhlükəsizliyinin təmin edilməsi dayanıqlı inkişaf amili kimi daim diqqətdə saxlanılır. Təcrübə göstərir ki, qida təhlükəsizliyini təmin edən etibarlı sistem yaradıldıqda bu, ümumi iqtisadi artıma, kənd təsərrüfatı və sənayenin inkişafına, ixrac potensialının artırılmasına və turizmin genişlənməsinə mühüm təsir edən faktora çevrilir. Ötən dövrdə muxtar respublikada qida təhlükəsizliyi məsələlərinin həllində unikal təcrübə əldə edilib. Fermer və torpaq mülkiyyətçilərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə onlara güzəştli kreditlərin təqdim olunması, ən yeni kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə torpaq mülkiyyətçilərinə verilməsi, mütərəqqi suvarma sistemlərinin qurulması, əkinçilik və heyvandarlıqda ənənəvi üsullardan yeni mütərəqqi texnologiyalara keçidin təmini, aqrar sahədə elmi yeniliklərin tətbiqi, baytarlıq fəaliyyətinin dünya standartlarına uyğunlaşdırılması və bu sahədə yerli kadr təminatının formalaşdırılması, süni mayalandırma və toxumçuluq üzrə ixtisaslaşdırılmış müəssisələrin yaradılması, soyuducu anbar və istixana şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarının müdafiəsi üçün daxili bazarın qorunması tədbirləri, nəticədə, Naxçıvan Muxtar Respublikasında uzunmüddətli dövr üçün qida təhlükəsizliyinin təmin olunmasını reallığa çevirib.

Muxtar respublikada rəqabətədavamlı və ixracyönümlü yeni məhsul növlərinin istehsalını həyata keçirən müəssisələrin fəaliyyətə başlaması və əldə edilən uğurlar istehsalın şaxələndirilməsinə, enerji, qida və ərzaq təhlükəsizliyinin, eyni zamanda səmərəli məşğulluğun təmin olunmasına, ümumilikdə, iqtisadiyyatın dinamik inkişafına yeni imkanlar və yollar açmaqdadır. Təbii ki, muxtar respublikada əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması qida təhlükəsizliyinin etibarlı şəkildə təmin edilməsi baxımından da əhəmiyyətlidir. Çünki idxal məhsulları ilə müqayisədə yerli istehsal sahələrində ekoloji cəhətdən təmiz və keyfiyyətli məhsul istehsalına nail olmaq və bu sahədə səmərəli nəzarət mexanizmi formalaşdırmaq daha asandır. Hazırda daxili bazarın qorunması ilə əhalinin qida məhsullarına olan təminatı böyük ölçüdə yerli məhsullar hesabına ödənilir, həmçinin yerli məhsulların ixrac potensialı və brendləşməsi üçün imkanlar yaranır. Özəl sektora göstərilən dövlət qayğısı muxtar respublikada çoxsaylı sahibkarlıq subyektlərinin fəaliyyətini və inkişafını şərtləndirir.



Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər planlarının icrası bu baxımdan mühüm əhəmiyyətə malikdir. Məhz bu istiqamətdə kənd təsərrüfatının inkişafında ailə təsərrüfatlarının da mühüm rolu var. Dövlət tərəfindən bu fəaliyyət sahəsinin stimullaşdırılması ilə bağlı atılan addımlar muxtar respublikada ailə təsərrüfatlarının sayının artmasına və inkişafına münbit şərait yaradıb. Həmçinin ailə təsərrüfatları tərəfindən hazırlanan ekoloji cəhətdən təmiz qida məhsulları və münasib qiymətlər yerli əhali ilə yanaşı, turist məmnunluğunu səciyyələndirən amillərdəndir. Bununla yanaşı, ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarət də diqqətdən kənarda qalmayıb. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ötən il ərzində məhsulların 271 halda laborator müayinələri aparılmış, sınaqların nəticələrinin texniki-normativ-hüquqi aktların, standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublikada aqrar sahənin inkişafı ilə bağlı görülən işlər, qəbul olunmuş Dövlət proqramları kənd təsərrüfatında məhsul istehsalının davamlı artmasını şərtləndirməkdədir. 2012-2015 və 2016-2020-ci illəri əhatə edən meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramlarının icrası da bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, muxtar respublikada meyvə və tərəvəz əkini sahələri genişləndirilmiş, əhalinin ilboyu meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün yeni soyuducu anbarlar və istixana təsərrüfatları yaradılmışdır. Bu sahədə qazanılmış uğurların davamlılığının təmin olunması məqsədilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı"nın qəbulu əsasında konkret icra mexanizmləri müəyyən olunmuşdur.

Naxçıvan balı hər yerdə öz alıcısını tapan ekoloji təmiz məhsullardandır. Bu sahənin davamlı inkişafı məqsədilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" qəbul olunmuş və konkret istiqamətlər üzrə icrası davam etdirilir. Son illərdə arıçılıqla məşğul olanlara hər arı ailəsinə görə subsidiyaların verilməsi bu sahəyə marağı artırmış, arı ailələrinin sayı 100 mini ötmüşdür.

Bu gün muxtar respublikada 384 növdə ərzaq məhsulu istehsal olunur və 108 növdə ərzaq məhsuluna olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Görülən tədbirlər sayəsində qida məhsullarının istehsalı üzrə dinamik inkişaf qorunub saxlanılır. Belə ki, 2022-ci ilin yanvar-aprel aylarında 46 milyon 559 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz çoxdur. Muxtar respublikada 2022-ci ilin yanvar-aprel aylarında 776 milyon 670 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricidən 1,7 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi isə 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artaraq 1676,8 manat olmuşdur.

Aparılan çoxşaxəli aqrar islahatlar, görülən kompleks tədbirlər sırasında yeni texnologiyaların tətbiqi başlıca amil kimi götürülür. Bu gün torpaq mülkiyyətçiləri və fermerlərin müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təmin olunması da məhsul istehsalında rentabelliyi artıran əsas tədbirlərdəndir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2006-cı ildən etibarən 3594 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmiş və 2935-i sahibkarlara lizinqə verilmişdir. Ötən ilin statistikasına nəzər saldıqda görmək olar ki, muxtar respublikada 64 min 259 hektar sahədə əkin aparılmış, o cümlədən 35 min 847 hektar sahədə taxıl, 3470 hektar sahədə kartof əkilmişdir. Eləcə də 2021-ci ildə 126 min 405 ton dənli və dənli-paxlalılar, 20 min 597 ton dən üçün qarğıdalı, 87 min 728 ton tərəvəz, 35 min 142 ton ərzaq üçün bostan məhsulları, 53 min 114 ton meyvə, 17 min 98 ton üzüm tədarük edilmişdir.

Muxtar respublikada əhalinin payız-qış mövsümündə keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsində yaradılmış soyuducu anbar və istixana kompleksləri də öz əhəmiyyətini göstərir. Bu gün muxtar respublikada dövlət maliyyə dəstəyi ilə yaradılan ümumi tutumu 21 min 400 tondan çox olan 50 soyuducu anbar və həmçinin yaradılmış 38 istixana təsərrüfatı bu sahədə də tələbatı ödəməyə geniş imkan yaradır.

"2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublikada baytarlıq sahəsində mütərəqqi işlər aparılmasına, bilavasitə kənd təsərrüfatının heyvandarlıq kimi əhəmiyyətli sahəsində irəliləyişlərə və nəticə etibarilə, əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə tam təmin olunmasına şərait yaratmaqdadır. Dövlət proqramının icrası üzrə muxtar respublikada heyvandarlıq məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması, dövlət reyestrinin aparılması, həmçinin heyvan mənşəli qida məhsullarının ilkin istehsalı, tədarükü, emalı, qablaşdırılması, saxlanılması, daşınması, dövriyyəsi də daxil olmaqla qida zəncirinin bütün mərhələlərində məhsulların təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülməkdədir. Muxtar respublikada 2022-ci ilin yanvar-aprel ayları ərzində diri çəkidə ət istehsalı 8837 ton, süd istehsalı 26 min 950 ton olmuşdur. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 6,2 faiz, süd istehsalı isə 1,4 faiz artmışdır.



Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehlakçılara təklif olunan qida məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin olunmasını prioritet fəaliyyət istiqaməti kimi diqqətdə saxlayır. Cari ilin I rübü ərzində keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi diqqətdə saxlanılmış, qida məhsullarının 152 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və nəticələrin texniki-normativ-hüquqi aktların, standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Muxtar respublikada reallaşdırılan iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi qida təhlükəsizliyinin səmərəli təmin olunması işi bundan sonra da diqqətdə saxlanılacaq və ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti***

# Növbəti “Göycə” festivalı da maraqlılığı, məhsul çeşidi və satışı, alıcı məmnuniyyəti ilə yaddaqalan olub

*Yazın ilk yeyilən meyvələrindən biri olan göycənin, sözün əsl mənasında, vətəni olan Naxçıvanda meyvəçiliyin inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər illərdir ki, bəhrələrini verməkdədir. Hər il keçirilən ənənəvi “Göycə” festivalına Naxçıvan şəhərindən, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Sədərək rayonlarından olan torpaq mülkiyyətçilərinin yetişdirdiyi müxtəlif növdə göycə məhsullarının, o cümlədən göycədən hazırlanan əl işlərinin sərgi-satışının təşkili Naxçıvanın brend məhsulu olan göycənin tanıdılmasına xidmət edir. “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən növbəti “Göycə” festivalında bir neçə qonaq və təsərrüfatçı ilə həmsöhbət olduq.*







Şərur rayonuna məxsus olan pavilyonda göycənin dadına baxan İran İslam Respublikasının Məşhəd şəhərindən olan ixtisasca bioloq ***Məhəmməd Rza*** dedi ki, ilk dəfədir, Naxçıvana gəlir, çox mehriban mühitlə qarşılaşıb: “Şəhəriniz çox gözəldir, saf havası insanı valeh edir. İnsanlarınız çox səmimidir, qarşımıza çıxan hər kəs qonaq olduğumuzu bilən kimi hörmətlə yanaşıb, nə kömək lazımdır edib. Əlincə qalasını, Duzdağı görmək imkanımız oldu. Tarixi abidələrin qorunub yaşadılması insanların tarixi köklərinə bağlı olduğundan xəbər verir. Tarixi yüz illər öncəyə söykənən Əlincə qalası bir memarlıq incisidir. İxtisasım bioloq olduğu üçün təbii gözəlliklərə də diqqət etdim və deyim ki, iqlimin bu cür sərt olduğu bir yerdə belə yaşıllıqların salınması təbiətin sərtliyi ilə mübarizə və ona qalib gəlmək deməkdir. Naxçıvanın ən şoran yerlərində belə ağaclar əkilib, gözəlliklər yaradılıb. Təbiətin sizə bəxş etdiyi bu nemətlərin bu cür nümayişi çox gözəldir. Dadına söz ola bilməz, əladır. İnsanlar min bir zəhmətlə becərib ərsəyə gətirdikləri məhsulları alın açıqlığı ilə festivalda satışa çıxarıblar. Naxçıvana gəldiyim, bu gözəlliklərin şahidi olduğum üçün çox şadam”.

Digər bir müsahibim Təbriz şəhərindən gələn ***Əşrəf Fəxri*** ixtisasca





həkimdir. O dedi: – İnsanın sağlam olması üçün lazım olan əsas amillər bunlardır: təmiz su, hava, təbii saf məhsullar və ən əsası sakitlik. Bütün bunları Naxçıvanda gördüm. Nə xoş sizə ki belə gözəl şəhərdə yaşayırsınız. Gecə olanda qaldığımız otelin pəncərəsini açır, sakitliyə heyran qalır, şəhərin təmiz havasını ciyərlərimə çəkirəm. Və Tanrının bu yerə bəxş etdiyi gözəlliyə tamaşa edirəm.

Gəzməyə çıxanda müasir üslubda inşa edilən tibb ocaqları diqqətimi çəkdi. Bir çoxunu kənardan müşahidə etdim, Duzdağ Fizioterapiya Mərkəzi ilə yaxından tanış oldum. Yer altındakı cənnət deyərdim mən oraya. Duz mağaralarında yaradılan xəstəxana, sözün əsl mənasında, möhtəşəmdir.

“Göycə” festivalına gəlməyimiz çox yaxşı oldu. Burada muxtar respublikanın getmədiyimiz rayonlarının insanları və orada yetişən məhsullarla tanış olduq. Qədim qala içərisində təşkil edilən festival çox gözəl xatirələrlə yaddaşımda qalacaq. Festivalda göycənin dondurmasının, qurusunun da dadına baxdıq. Öyrəndik ki, bu meyvəni mütləq Naxçıvan duzuna batırıb yeyirlər. Çox dadlıdır, duzunuz da, göycəniz də.

Türkiyənin Ərzurum şəhərindən yurdumuza qonaq gələn ***Ayşə Dəmir*** isə qızı Turanı Duzdağ Fizioterapiya Mərkəzinə gətirib. Söylədi ki, bu, Naxçıvana ikinci gəlişidir. Ayşə xanım festivala burada tanış olduğu Süsən xanımın dəvəti ilə gəlib: “Çox gözəl bir məkandır Naxçıvan. “Göycə” festivalına xüsusi maraqla gəldim. Ərzurumda yaşayan naxçıvanlılar çox tərifləyirdi göycəni, həqiqətən də, tərifəlayiq imiş. Dadlı olduğu üçün evimizə aparmağa qurusunu və turşusunu aldım.

Şərur rayonunun ailə təsərrüfatçıları tərəfindən festivala gətirilən göycədən hazırlanan məhsullar diqqətimizi çəkdi. Rayonun Düdəngə kənd sakini ***Nağı Rəhimov*** həyətyanı sahəsində göycə bağı salıb, ailə təsərrüfatı da yaradıb, dondurma hazırlanması üçün xüsusi cihaz alıb. O dedi: – İlk gündən dövlət dəstəyini hiss etmişik. Bundan faydalanaraq işlərimizi genişləndirir, çeşid bolluğu yaradırıq. Göycənin mürəbbəsini, cemini, qurusunu hazırlamaqla yanaşı, dondurmasını da istehsal etməyə qərar verdim. Göycəni bağımızdan toplayır, əvvəlcə şirəsini çıxarır, sonra süd, şəkər və digər köməkçi məhsulları qatır, göycəli dondurma hazırlayırıq. Məhsulu ilk dəfə bu festivala çıxarmışam. Müştəri məmnuniyyəti qazanıb. Ən çox da uşaqlar bu rəngbərəng dondurmaları həvəslə alır və yeyir. Yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

“Bu il ilk dəfə “Göycə” festivalını rayonumuzda da keçirəcəyik. Bu xəbər biz ailə təsərrüfatçılarını sevindirdi”, – dedi digər müsahibim – Kəngərli rayonunun Çalxanqala sakini ***Vüqar Məmmədov.*** O bildirdi ki, beş ildir, təsərrüfat yaradıb. Müsahibim qeyd etdi ki, göycə Naxçıvanda ən tez yetişən meyvədir. Onun adi alçadan fərqli cəhəti tam yetişənə qədər yaşıl rəngini qoruyub saxlamasıdır, göy-göy yeyildiyi üçün də elə “Göycə” adlanır. Bu meyvə ancaq Naxçıvanda yetişir, ölkəmizin digər bölgələrində yetişdirilsə də belə meyvənin dadı tamamilə dəyişir və adi alçaya çevrilir. Yazda ağacların ən tez oyananı göycədir, o yarpaq açmamışdan əvvəl çiçəkləyir. Meyvələri mayın ortalarında yeyilməyə başlayır. İlk vaxtlar turş olsa da, getdikcə şirinləşir, iyunun axırı, iyulun ortalarında tam yetişir.

Şahbuz rayonunun Badamlı kəndindən olan ailə təsərrüfatçısı ***Rövşən Əsgərov*** dedi ki, 140 kiloqram məhsulla festivalda iştirak edir. Günün ilk yarısı olmağına baxmayaraq, gətirdiyi məhsulun, demək olar ki, yarısını artıq satıb. Bu cür festivalların təşkili təsərrüfatçılara məhsullarını münasib qiymətə satmağa kömək etməklə yanaşı, Naxçıvan məhsullarının tanıdılmasında mühüm əhəmiyyət kəsb edir.

Digər müsahibimiz Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, Beynəlxalq Oral İmplantoloqlar Konqresinin üzvü, həkim-implantoloq ***Cabbar Həsənov***dur:

– Doğma yurdum Naxçıvanda yaşamasam da, işimlə əlaqədar olaraq tez-tez gəlirəm. Hər dəfə gələndə isə mütləq bir yenilik, bir inkişaf görürəm. Bu məni çox sevindirir. Bu festival mənə uşaqlıq illərimdəki məhsul bayramlarını xatırlatdı. Burada bir zamanlar məhsulu ağacların altında məhv olan kəndlilərə bu gün həmin məhsulları satmaq, əlavə gəlir əldə etmək üçün gözəl şərait yaradılıb. Bundan ruhlanan təsərrüfatçılar göycədən mürəbbə, kompot, araq və digər məhsullar hazırlayıblar. Hələ göycədən hazırlanan əl işləri insanı lap valeh edir. Belə tədbirlər vasitəsilə şəhərimizdə olan xarici turistlər Naxçıvan məhsullarını görür, tanıyır və getdiyi yerlərdə də tanıdırlar.



Burada mən həm də musiqinin, xalq yaradıcılığının, insanların həmrəyliyinin təzahürü olan bir tədbirin şahidi oldum. Bir neçə gündür, buradayam, lakin festivaldan aldığım zövqün yerini heç nə verə bilməz.



Tehran şəhərindən muxtar respublikamıza istirahət üçün gələn qonaqlar festivala heyranlıqla tamaşa edirdilər. Onlardan biri də ***Məhəmməd Əli***dir:

– Burada əsl bayram ab-havası var. Sosial şəbəkələrdəki naxçıvanlı dostlarımızın paylaşımlarından bu cür festivalların şəhərinizdə çox keçirildiyini bilirdik. Bu gün isə bunun canlı şahidi olduq. Burada meyvələrin, əl işlərinin satışı təşkil olunmaqla yanaşı, konsert proqramları, göstərilən müxtəlif xidmətlər insanlara əsl istirahət üçün şərait yaradır. Ən çox diqqətimi çəkən isə Naxçıvanın atributlarından hazırlanmış əl işləri oldu.

Artıq bir neçə gündür ki, Naxçıvandayıq. Buradakı bir çox tarixi abidələri və bizim üçün xüsusi maraqdoğuran Əshabi-kəhfi ziyarət etdik. Deməliyəm ki, qədimliyini özündə yaşadan abidələrinizin bu qədər qorunması təqdirəlayiq haldır. Şəhəriniz çox təmizdir. Qaldığımız oteldə biz turistlərə xüsusi diqqət göstərirlər. Axşamlar qaldığımız otağın pəncərəsindən şəhərin işıqlı, möhtəşəm mənzərəsini seyr etmək isə xüsusi zövq verir. Bildiyimizə görə, Naxçıvan Azərbaycan xalqının mənfur düşmənləri ilə yaxın ərazidə yerləşir. Belə bir şəraitdə Naxçıvanın həm bu qədər toxunulmaz qalmasına, blokada vəziyyətində bu qədər inkişaf edib, müasir görkəm almasına heyrətləndik. Naxçıvanlılar çox istiqanlıdırlar. Mən bir çox ölkədə, müxtəlif şəhərlərdə olmuşam. Lakin belə isti münasibəti yalnız Naxçıvanda gördüm.

Babək rayonunun Nehrəm qəsəbəsində yaşayan ***Cəmşid Həsənov*** illərdir ki, göycə təsərrüfatı ilə məşğuldur. Ailə təsərrüfatı sahibi gətirdiyi göycə məhsuluna marağın böyük olduğunu söyləyərək bildirdi ki, belə festivalların təşkili bu meyvənin tanıdılmasına xidmət etməklə yanaşı, təsərrüfatçılığa stimul yaradır. Budəfəki festivala 200 kiloqram göycə çıxaran təsərrüfatçı dedi ki, yetişdirdiyi məhsul ilk dəfə elə burada təşkil edilən festivala çıxarıldıqdan sonra daha yaxşı tanınıb. İndi Azərbaycanın hər yerindən və naxçıvanlılar yaşayan xarici dövlətlərdən göycə sifariş edirlər. Müsahibim bildirdi ki, onun yetişdirdiyi məhsul dadına və görünüşünə görə keçirilən festivallarda mükafat və diploma da layiq görülüb. 2019-cu ildə “Göycə” festivalında I yerin qalibi olan təsərrüfatçı budəfəki festivala 70 kiloqram ərik, göycə, alça, qovun, qarpız araqları, alça və göycə turşuları çıxarıb və yaxşı gəlir əldə edib.

Muxtar respublikamızda hər il keçirilən ənənəvi “Göycə” festivalında təsərrüfatçılarımız üçün ən yaxşı uğur həm gərgin zəhmətin, illərin peşəkarlığının nəticəsi olaraq alıcıların onlara ünvanladığı xoş sözlər, həm də iki günün sonunda bağ-bağatlarının dadlı-tamlı, sevilib-seçilən məhsullarının onlara qazandırdığı mükafatlardır. Festivalın ikinci günündə məhsul keyfiyyətinə görə nominasiyaların qalibi olan bir neçə təsərrüfatçı ilə söhbətləşib, onların maraqlı fikirlərini dinlədik.

İlk həmsöhbətimiz birinci yerin qalibi – Şərur rayon sakini ***Nadir Abdullayev*** oldu. Uzun illərdir, öz həyətində bağçılıq-bostançılıqla məşğul olan müsahibim dedi: – Diyarımızda keçirilən ənənəvi “Göycə” festivalında mükafatlandırılmağım üçün hədsiz sevinirəm. Bizim üçün yaratdığı bu gözəl şəraitə görə bütün iştirakçılar adından dövlətimizə minnətdarlıq edirəm. Rayonumuzun münbit torpaqları, təsərrüfatla məşğul olmaq üçün dövlətimiz tərəfindən yaradılan şərait məhsullarımızın belə keyfiyyətli olmasına geniş imkanlar açır. Bizlərə qalan isə bu gözəl, dadlı-tamlı məhsullarımızı gətirib alıcılara təqdim etməkdir. Artıq iki gündür ki, buradayam. Yaxşı satış da etmişəm. Alıcılarım da məhsulumdan razılıq edir, dadına və keyfiyyətinə görə seçildiyini deyirlər. Onu da qeyd edim ki, göycə yetişdirmək bir qədər çətin və işgüzarlıq tələb edən bir işdir. Hətta yaşlı nəslin nümayəndələri deyərlər ki, naxçıvanlılar zəhmətsevər olduqları üçün göycə bir tək Naxçıvanda bu qədər geniş yayılır, necə deyərlər, sanki naxçıvanlılar bu məhsulu yetişdirməyin dilini bilirlər. Bir qədər mürəkkəb yetişdirmə prosesi olan göycə ağaclarını torpağa əkdiyin bir gündən xüsusi diqqət və qayğıyla yanaşmalısan. Bu yolla çəkdiyin zəhmətin heç zaman hədər getmədiyini görəcəksən. Təsərrüfatçı üçün ən böyük mükafat, mən deyərdim ki, alıcı məmnuniyyətidir.

Festivala çıxarılan məhsullardan ən maraqlısı isə göycə dondurması idi. Culfa rayonunun Ləkətağ kəndindən olan sahibkar ***Dünyamalı Hacıyev***in təqdim etdiyi göycə dondurması alıcıların da böyük marağına səbəb olmuşdu. Müsahibimiz yeni məhsul haqqında bunları dedi: – Dondurma, əsasən, havaların isti keçdiyi dövrdə insanların ən çox istifadə etdiyi qida məhsullarındandır. Şirin dadı və sərinliyi ilə uşaqdan böyüyə – hər kəsin sevə-sevə istifadə etdiyi bir təamdır. Bildiyiniz kimi, bu gün dünyada dondurmaların böyük əksəriyyəti müxtəlif meyvə şirələri və ədviyyatlar əlavə olunaraq satılmaqdadır. Bu da dondurmaya xüsusi ləzzət verir. Biz də muxtar respublikamızda “Göycə” festivalının keçiriləcəyini nəzərə alıb, bu dəfə festivala bir çox meyvəli dondurmalar, o cümlədən göycə dondurmasını çıxarmağı qərara aldıq. Təcrübə üçün bir neçə dəfə bunu sınaqdan keçirmişdik. Əvvəlcə meyvə kiçik parçalara bölünməklə taraşdan keçirilir, sonra süd və digər ədviyyatlarla, həm də meyvənin öz suyu da əlavə olunmaqla reseptə uyğun olaraq qarışdırılır və dondurulmağa buraxılır. Müəyyən zamandan sonra artıq dondurma hazırdır. Festivala 10 kiloqram göycə dondurması çıxarmışdıq və hamısı satıldı. Qeyd etdiyim kimi, dondurmaya maraq çox idi, yeni məhsulumuz festivalın təşkilatçıları tərəfindən də maraqla qarşılandı. Elə bu marağın nəticəsidir ki, bu festivalda ikinci yerin qalibi seçildik. Bu şəraiti yaradanlara minnətdarlığımı bildirirəm.

Budəfəki festivalda II yerin qalibi olan Ordubad rayonunun Qoşadizə kənd sakini ***Əhəd Məmmədov*** festivalda 300 kiloqram göycə və ondan hazırlanan müxtəlif məhsullarla iştirak edib. Təsərrüfatçı istər satış yarmarkalarında, istərsə də belə festivallarda iştirak etdikdən sonra yetişdirdiyi məhsula tələbatın artdığını söylədi. Dedi ki, hazırladıqları məhsulların, demək olar ki, hamısı satılır. Belə tədbirlərin keçirilməsi təsərrüfatçılar üçün böyük stimuldur. O bu kimi festivalların keçirilməsində əməyi olan hər kəsə minnətdarlığını bildirirdi.

Növbəti müsahibimiz, üçüncü yerin qaliblərindən olan ***Orxan Novruzov***un dediklərindən: – Bu gün mən də qalib olduğum üçün sevincliyəm. Ona görə ki, ailəmlə birlikdə çəkdiyim zəhmətin hədər getmədiyini bir daha gördüm. Onu, xüsusilə vurğulamağa ehtiyac duyuram ki, illərdir, muxtar respublikada ömrünü zəhmətə bağlayan insanlara böyük qayğı göstərilir. Ən qiymətli sərvət olan torpaqdan səmərəli istifadəyə şərait yaradılır, belə şəraitdən istifadə edən hər bir torpaq mülkiyyətçisinin uğur qazanması da təbiidir.



Ailə təsərrüfatının üzvləri ilin ilk təsərrüfat işlərindən başlayaraq əkin sahəmizdə, meyvə bağımızda lazımi aqrotexniki işləri həyata keçiriblər. Göründüyü kimi, çəkilən zəhmət bəhrəsini verib; bu gün satışa çıxardığım məhsuldan xeyli gəlir əldə etmişəm. Yaradılan belə şərait hər birimizi sevindirir. Dövlətimizə minnətdarlığımı bildirirəm.

*Qeyd edək ki, 4-5 iyunda keçirilən “Göycə” festivalına muxtar respublika üzrə 278 ailə təsərrüfatı tərəfindən 9 çeşiddə 25031 kiloqram göycə çıxarılıb. İki gün ərzində 88857 manatlıq məhsul satılıb. Festival çərçivəsində sərgi-satış da təşkil edilib. Müxtəlif idarə, təşkilat və komitələr tərəfindən 44 çeşiddə 4268 əl işi də satışa çıxarılıb, 2950 manat dəyərində əl işi satılıb.*

✍ **Ramiyyə ƏKBƏROVA**
✍ **Məcid RƏŞADƏTOĞLU**
✍ **Gülcamal TAHİROVA**
✍ **Telli MƏMMƏDOVA**

***Müasir dövrümüzdə şahmatın inkişafı, kütləvi hal alması və bu növə marağın artırılması Azərbaycanda həyata keçirilən uğurlu idman siyasətinin tərkibində özünəməxsus yer tutur. Müxtəlif idman növləri üzrə idmançılarımızın əldə etdiyi uğurlar ölkəmizin təbliğində də mühüm rol oynayır. Ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şahmatın kütləviləşməsinə diqqətin artırılması, müstəqillik illərində isə bu idman növünün inkişafına dair Dövlət proqramının təsdiq edilməsi şahmatın inkişafının yeni mərhələsinin əsasını qoydu. Beynəlxalq Şahmat Federasiyasının üzvü olan ölkələr arasında şahmatın inkişaf etdirilməsi üzrə xüsusi Dövlət proqramı qəbul etmiş ilk dövlət olan Azərbaycanda daim bu sahənin qayğı ilə əhatə edilməsi öz bəhrəsini verməkdədir.***

# NAXÇIVAN dünya arenasında mükəmməl şahmat məkanına çevrilməkdədir



## Dövrün kompozisiyasında yeni etüd, şahmat oyununda emosiyasız tədrisin əhəmiyyəti

### *Tarixi qələbənin izi ilə*

Tarixə nəzər yetirsək, şahmatın muxtar respublikada mütəşəkkil formada yayılmasının XX əsrin 20-ci illərindən başladığını görərik. 1923-cü ildə qeyri-azərbaycanlılar arasında keçirilən Bakı çempionatında iştirak edən, Naxçıvanda doğulub bu növün sirlərini burada öyrənən Vladimir və Mixail Makoqonov qardaşları qalib olurlar. Bu qələbə, eyni zamanda muxtar diyarımızda zəka oyununun hansı ildən yüksək səviyyədə oynanıldığının göstəricisidir.

Muxtar respublikamızda son illər digər idman növləri ilə yanaşı, şahmatın da maddi-texniki bazasının



möhkəmləndirilməsi, inkişaf etdirilməsi istiqamətində böyük işlərin görülməsi bu növə marağı xeyli artırıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şahmata olan diqqəti nəticəsində 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yaradılması, Naxçıvan Şahmat Mərkəzi və 7 rayonda şahmat məktəbinin fəaliyyət göstərməsi nəticəsində bu gün bu məktəblərdə 4000-ə yaxın uşaq və yeniyetmə şahmatla məşğul olur. Bu illər ərzində Şahmat Mərkəzi və məktəblərinin 67 ən yeni müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri, ümumtəhsil məktəblərində şahmat siniflərinin 490 ayaqlı, 500 asma və 3910 stolüstü şahmat dəsti ilə təchiz olunması göstərilən qayğının bariz nümunəsidir.



Uşaq və yeniyetmələrin mənəvi inkişafında şahmatın oynadığı rol olduqca böyükdür. Bu, hər şeydən əvvəl, intellektuallığı ilə seçilən fərdin formalaşmasında mühüm əhəmiyyətə malikdir. Sevindirici haldır ki, bu gün muxtar respublikada zəka oyunu gələcəyimiz olan uşaq və yeniyetmələr arasında da kifayət qədər kütləvi hal alıb. Təbii ki, bunun da səbəbləri var. Ümumiyyətlə, şahmatın Naxçıvanda yeni model halında inkişafının əsası 2018-ci il sentyabrın 8-də Şahmat Federasiyasının hesabat-seçki konfransından sonra qoyulub. Konfransda quruma yeni sədr seçilən Seymur Talıbov ilk gündən etibarən federasiyada şahmatın inkişafı, kütləvi hal alması, yeni gənc istedadların axtarışı yönümündə sonu uğura aparan məqsədyönlü işlər görməyə başlayıb.

### *Qələbəyə gedən yolun iş prinsipi*

Yenilənən strukturun qarşısına qoyduğu məqsəd və vəzifələr çətin görünsə də, əslində, hər bir qurum üçün nümunə olmalıdır. Şahmat Federasiyası ilk olaraq mükafat fondunu təsis etdi ki, bu da muxtar respublikada bir ilk kimi tarixə düşdü. Federasiya sədrinin təşəbbüsü ilə yaradılan fondun məqsədi şahmatçılar və məşqçi-müəllimlərin bu idman növünə marağını və rəqabətlilik hissini artırmaqdır. Fonda yığılan vəsait il ərzində uğurlu nəticələr qazanmış şahmatçılar və onların məşqçilərinin mükafatlandırılmasına, habelə şahmatçıların yarışlara göndərilməsinə yönəldilir.

Uşaq və yeniyetmələrə tədris olunan şahmatın təsiri onlarda təkcə zəkanın inkişafında yox, eyni zamanda yeni bir şüurun formalaşmasında əsas əhəmiyyət kəsb edir. Federasiyada şahmatı öyrənmək istəyən uşaqlara məntiqli düşünmək, analitik bacarıqları inkişaf etdirmək, strateji düşünməyə alışmaq aşılanmağa başlanıldı. Təbii ki, bu, orta məktəblərdə də tədris olunan şahmat dərslərinin yüksək səviyyədə təşkil olunmasının göstəricisidir. Həmçinin muxtar respublikada fəaliyyət göstərən 200-dən artıq məktəblə Naxçıvan Şahmat Mərkəzi arasında onlayn bağlantıların sayının çoxaldılması yeni istedadlların üzə çıxmasına səbəb oldu. Bu çərçivədə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Təhsil Nazirliyi ilə qarşılıqlı koordinasiyası məktəblərdə şahmat dərsinin geniş tədrisinə imkan yaratdı. Orta məktəblərdə şahmatı tədris edən müəllimlərin sertifikasiya imtahanlarının keçirilməsi, şahmatla bağlı tədris vəsaitlərinin nəşr olunaraq ümumtəhsil məktəblərinin şahmat müəllimlərinə təqdim edilməsi növbəti uğurlara səbəb olan səmərəli birgə fəaliyyətin ideal nümunəsidir.



Şahmatın zehni qabiliyyətlərin inkişafına əhəmiyyətli təsir göstərməsini diqqətdə saxlayan federasiya şahmatın kütləviliyinə tək uşaq və yeniyetmələr arasında yox, həm də böyüklər arasında nail olub. Belə ki, onlayn bağlantılar və praktik olaraq keçilən ustad dərslərində şagirdlərlə yanaşı, müəllimlərin də iştirakı təşkil edilir ki, bu da onların bilik və bacarıqlarının artırılmasında müstəsna rol oynayır. Bu seminarlar şahmatın inkişafına bilavasitə təsir göstərən ən böyük amillərdən biri hesab edilir. Eyni zamanda şahmat məktəbləri ilə yanaşı, müxtəlif təşkilatların işçiləri – şahmat azarkeşlərinin də bu işdə aktiv iştirak etməsi təqdirəlayiq haldır.

Məlum pandemiya dövründə belə Şahmat Federasiyasının iş prinsipində gerilmə müşahidə olunmadı. Şahmat məktəbləri arasında onlayn dərslərin keçilməsi, yarışların təşkili, ən əsası isə keçilən dərslərin internetə yüklənməsi şahmatçılarda çətinlik yaratmadı. Həmin dövrdə federasiya Türkiyə, İran, Pakistan və bir sıra ölkələrin şahmat klubları ilə onlayn yoldaşlıq görüşləri təşkil etdi. Xüsusilə federasiya məşqçilərinin şahmatçılar qarşısında qoyduğu tapşırıqlar pandemiya dövründən sonra özünü müsbət şəkildə büruzə verdi.

Təbii ki, federasiya 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə verilən tapşırıq və tövsiyələri əsas tutaraq fəaliyyətini məhz bu istiqamətdə qurub.

### *Şahmatçıları uğura aparan yollar*

Şahmat özünəməxsus və ecazkar bir modeldir: böyüyən bir nəslin əqli inkişafı, estetik təhsili üçün proqramlaşdırılıb. Tanınmış şahmatçı Aleksandr Bisno şahmatın maddi və mənəvi mədəniyyətə mənsubluğundan danışarkən şahmatdakı gözəlliyi belə təsvir edib: "Şahmatdakı gözəllik ruhu tünd-qırmızı gün batımı kimi, ot bıçağının ovcundakı gümüşün səpələnməsi kimi, nəbz verən fontenel kimi – böyük Volqa mənbəyi kimi ruhu heyran edə bilər". Lev Yakovleviç Roklin digər sənət sahələri kimi şahmatın da mədəni dəyərlər yaratdığını söyləməsi bu ifadəni təkrarlayır. Beləliklə, şahmatdakı sənət mədəni dəyərlər yaradan və ətrafdakı gerçəkliyi özünəxas olan vasitələrlə mənimsəyən bir ictimai şüur forması kimi meydana çıxır. Məhz bu amil Şahmat Federasiyasının əsas devizidir desək, yaqin ki, yanılmarıq. Çünki şahmat düşünməyi öyrədir və bu, uşaqların gələcək zehni fəaliyyətində özünü göstərir.

Təbii ki, bu sahədə əldə edilən nailiyyətlər, dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə qazanılan uğurlar muxtar respublikamızda şahmata göstərilən diqqət və qayğının təzahürüdür. Belə qayğı isə, təbii ki, Naxçıvan şahmatçılarının beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaradır. Bəs bu uğurlarda federasiya məşqçilərinin şahmatçılar qarşısında qoyduğu öhdəliklər nədən ibarətdir:

– Şahmat universal insan mədəniyyətinin bir hissəsidir – şahmat yalnız emosional yük daşımır, həm də insana onun mənəvi cəhətdən yetkinləşməsinə kömək edən bir sıra keyfiyyətlər aşılayır. Şərq döyüş sənətlərində olduğu kimi, ilk olaraq şahmatçıya məşqçilər tərəfindən "əxlaq kodeksi" izah edilir. Bu, federasiyada çalışan hər bir məşqçinin artıq vəzifə borcudur.

– Bir insanı xoşbəxt etmək qabiliyyətinə sahib olan sevgi və musiqi kimi zehnin musiqini insana səssiz aşılayan şahmat bənzərsiz bir oyundur, bəzilərinə görə isə şahmat "ağıl əzabı"dır. Düşüncə intizamı federasiyanın əsas prinsipidir. Bir şahmatçının vaxt problemi ilə üzləşməməsi üçün düşünməyə ayrılmış vaxtı öncədən düşünməsi ən çox aşılanan məqamdır.

– Dünya mədəniyyətinin şahmat seqmentində şahmat yaradıcılığının inkişaf tarixi mürəkkəb və ziddiyyətli bir fenomendir. Bu fenomenin modeli təkxətli deyil, çünki bir oyunu qələbə ilə başa vurmaq şahmatda metodların idrakının nəhəng qövsü ola bilər. Taxtada şahmatçı həm fürsətlər, həm də təhdidlərlə təkbaşına qalır. Oyunun nəticəsi yalnız öz qərarlarının bəhrəsidir. Müstəqil qərar vermək şahmatda ən önəmli duyğulardan biridir ki, məşqçilərin də daha çox uşaqlara aşılamağa çalışdığı amil budur.

– Şahmatın həqiqiliyi ondadır ki, şahmat oyunu ahəngdar məntiq və insan düşüncəsi ilə yaradılan əsərdir. Bu əsərin qəhrəmanı isə qərarları verən və bunun məsuliyyətini dərk edən oyunçudur. Məsuliyyət hissini şahmatçılara təbliğ edən federasiya bunun üçün hər ayın müəyyən edilmiş günlərində istedadlı uşaqlarla fərdi söhbətlər aparır.

– Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasında müasir şahmat fəlsəfəsi zəka sahiblərinə şərhlərdə, peşəkarların şahmatla bağlı söhbətlərində, məşqçilərin təlimatlarında aşılanır. Şahmatın bu xüsusiyyətləri həm də fərdin yaradıcılıq qabiliyyətlərinin formalaşmasında və inkişafında mühüm rol oynayır.

Bu öhdəliklərdən belə nəticəyə gəlmək olur ki, şahmatla məşğul olan hər bir uşaq və yeniyetmə qələbənin öz-özünə gəlmədiyini anlamalı, oyunları qazanmaq, lazımi qərarlar vermək üçün federasiyanın məqsədlərini bilməlidir. Təbii ki, bu məqsədlərin hamısı, əslində, zəka sahiblərinin inkişafı üçündür.

### *Misilsiz birləşmənin məkanı*

Dahi rus yazıçısı Vladimir Nabokovun fikrincə, şahmat kompozisiyası və ədəbi yaradıcılıq bir-birinə çox yaxındır. Buna XII



əsrin mütəfəkkirləri – Xaqani Şirvani və Nizami Gəncəvi kimi şairlərin əsərlərində, azərbaycanlı şairə Məhsəti Gəncəvinin şeirlərində, həmçinin yazıçı və filosof Mirzə Fətəli Axundovun 1864-cü ildə yazdığı "Satrancın oyunu" əsərində rast gəlmək mümkündür. Təbii ki, intellektual potensiala malik şahmatçılarımız dünya arenasında keçirilən turnirlərdə böyük uğurlar əldə edərək soydaşlarımızın elmi, məntiqi təfəkkürünün yüksək olmasını hər zaman nümayiş etdirirlər.

Naxçıvanlı şahmatçıların beynəlxalq səviyyədə uğur qazanması muxtar respublikada intellektual səviyyənin göstəricisidir. Xüsusilə son illər şahmatçılarımızın müxtəlif titullar qazanması, adlar alması buna əyani sübutdur. Naxçıvan Muxtar Respublikasında bu gün böyük şahmat infrastrukturu yaradılıb, inkişaf strategiyası müəyyənləşdirilib, bu növün inkişafı dövlət səviyyəsinə qaldırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda da bu öz əksini tapıb.

Muxtar respublikamızda təşkil olunan beynəlxalq turnirlərdə yüksək reytinqli şahmatçıların Naxçıvana gəlməsi, burada iştirak etməsi turnirlərin səviyyəsinin göstəricisidir. "Naxçıvan – 2019" Beynəlxalq Şahmat Festivalının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ***"Hər il olduğu kimi, bu il də festival iştirakçılarının kütləviliyi ilə fərqlənir"***, – deyərək yarışların əsl idman mübarizəsi şəraitində keçəcəyinə və şahmatçıların ölkələrini layiqincə təmsil edəcəklərinə əminliyini bildirmişdir. Həmin festivalda Ukrayna, Belarus, Belçika, ABŞ, İran, Hindistan, Latviya, Yunanıstan, Türkiyə, Rusiya, Gürcüstan, Özbəkistan, Qazaxıstan və Azərbaycanı təmsil edən 400-ə yaxın şahmatçının iştirakı, təbii ki, yerli zəka sahiblərinin inkişafına müsbət təsir göstərdi. Belə böyük zəka sahiblərinin diyarımızda turnirlərdə iştirakı, onların şahmatçılarımızla eyni taxta arxasında mübarizə aparması yerli zəka sahiblərimiz üçün əyani ustad dərsləridir.

*Qısa bir haşiyə çıxaq.* İlk dəfə təşkil olunan beynəlxalq yarışlarda



yerli iştirakçıların sayı 10-a yaxın idisə, indi bu say artıq 100-ü keçib. Onu da qeyd etməliyik ki, bu göstərici say etibarilə çoxaldıqca, qazanılan medalların da sayı və əyarı yüksəlir. Bu, keyfiyyətli işin bəhrəsidir. Həmçinin son olaraq çıxış edilən turnirlərdə zəka sahiblərimizin dünyanın tanınmış şahmatçıları ilə başa-baş mübarizə aparması, hətta onlardan xal alması və onların iştirak etdiyi turnirlərdə mükafat qazanması Naxçıvan şahmatının yeni yüksəliş mərhələsində olması deməkdir. Bu uğurda Pərviz Qasımov, Toğrul Həsənzadə, Sadiq Məmmədov, Urfan Sevdimalıyev, Nəsrin Babayeva kimi istedadlı şahmatçılarımızın rolu böyükdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə şahmatçı Nazlı Hümbətovanın adının "Gənc istedadların qızıl kitabı"na yazılaraq xüsusi aylıq təqaüdə layiq görülməsi şahmata xüsusi dövlət qayğısının bariz nümunəsidir. Bu, eyni zamanda xüsusi mükafata layiq görülən 4-cü zəka sahibidir.

Təbii ki, turnirlərdə mübarizə aparan idmançıların çoxluğu Şahmat Federasiyasının digər federasiyalarla əlaqələrinin nə qədər güclü və sağlam olduğunun göstəricisidir. Bu həm də Naxçıvanın bir şahmat diyarı, məkanı olması deməkdir. Son şahmat turnirində federasiya sədri Seymur Talıbov çıxış edərkən oktyabr ayında keçiriləcək şahmat olimpiadasına və gələn il ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar yüksək səviyyədə təşkil olunacaq beynəlxalq turnirə ciddi hazırlıq işləri aparılacağını xüsusi vurğuladı. Təşkil olunacaq mükəmməl yarışlarda Naxçıvan böyük zəka sahiblərinə qucaq açacaq ki, bu da yerli şahmatçıların inkişafına birbaşa təsir göstərəcək.

***Şahmat insanların özləri tərəfindən yaradılan süni insan həyatı modelidir. Şahmat sənət, oyun, idman və elmi biliklərin misilsiz birləşməsidir. İndi, əminliklə deyə bilərik ki, bu misilsiz birləşmədə Naxçıvan özünü dünya arenasında mükəmməl bir məkan kimi tanıdıb və FIDE-də ən reytinqli festivallardan, turnirlərdən biri məhz muxtar respublikada təşkil olunur. İndi Naxçıvanı – Şərqin şahmat diyarını böyük turnirlər, festivallar gözləyir. Bu yolda Şahmat Federasiyasının məsuliyyət və yüksək təşkilatçılıq məharəti ilə diyarımızın təbliğini də ən yaxşı şəkildə bacaracağına əminik...***

✍ Ceyhun MƏMMƏDOV



*Dini-mənəvi dəyərlərimiz*

# Mənəviyyat səyahətinin ünvanı – Əshabi-kəhf

***Müstəqillik illərində muxtar respublikada bərpa olunan tarix-mədəniyyət abidələri içərisində "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi mühüm yer tutur. Hər il ölkəmizin digər bölgələri ilə yanaşı, xarici ölkələrdən də bu müqəddəs ocağı ziyarət etməyə gəlirlər.***

Onu da qeyd edək ki, xalqımızın müstəqillik qazanması, onilliklərlə qəlbimizdə, ruhumuzda yaşatdığımız, qoruyub saxladığımız dini-mənəvi dəyərlərimizin də, necə deyərlər, müstəmləkə buxovlarından azad olmasına, dini inanclarımıza, dini-tarixi abidələrimizə sahib çıxmağımıza geniş meydan açdı. Əshabi-kəhf ziyarətgahına uzun illər ziyarətçilər gəlib-getsə də, sovetlər dövründə bura dövlət nəzarətindən kənarda olub. Sovet hakimiyyətinin xalqımıza, milli-mənəvi dəyərlərimizə qarşı sərt qadağalarına baxmayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev o illərdə xalqımızın dininə, inanclarına hörmət bəsləyir və müqəddəs yerlərə qayğı göstərirdi. Bu qayğını dahi öndər müstəqillik dövrümüzdə də davam etdirirdi. Görkəmli dövlət xadiminin



1998-ci ildə Əshabi-kəhfin abadlaşdırılması və bərpa edilməsi barədə göstəriş verməsi xalqımızın dininə və tarixinə göstərdiyi qayğının bariz nümunəsidir. Muxtar respublikamızda geniş vüsət alan quruculuq tədbirləri belə müqəddəs ünvanları, dini abidə və ziyarətgahları da əhatə edir. Bunun ifadəsidir ki, 2006-cı ildə Əshabi-kəhf tarixi abidəsi və ziyarətgahı tamamilə yenidən qurulub. Buradakı məscid binası da tarixi görkəmini qoruyub saxlamaqla təmir edilərək ziyarətçilərin istifadəsinə verilib. Bu günlərdə həmin müqəddəs ünvanda olduq, muxtar respublikamıza məhz bu müqəddəs ziyarətgahı görmək üçün gələn qonaqların bir neçəsi ilə söhbətləşdik. Onların söhbətlərini oxucularımıza təqdim edirik.

Türkiyənin Bursa şəhərindən gələn ***Mərvə Bozkurt*** dedi: – Naxçıvana 4-cü dəfədir, səfər edirəm. Hər gəldiyimdə bu müqəddəs məkanı ziyarət etmədən geri dönmürəm. Bura mənə hüzur verir. Ziyarətgahın möhtəşəm görüntüsü, dağlar, naxçıvanlıların qonaqpərvərliyi və mehribanlığı valehedicidir. Ölkəmizə çox böyük təəssüratlarla qayıdacağam. Türkiyə ilə Azərbaycan arasında çoxillik qardaşlıq və dostluq əlaqələri mövcuddur. Bunun əsas səbəbi iki qardaş ölkənin ortaq tarixə və eyni dini inanca sahib olmasıdır. Naxçıvan məscidlər, dini ibadət yerləri baxımından çox zəngin, dini-mənəvi dəyərlərə yüksək ehtiram göstərilən bir diyardır. Müsəlmanların rahat şəkildə namaz qılması üçün fəaliyyət göstərən məscidlər bu qədim diyarın dini rituallara ali münasibətinin göstəricisidir. İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir. Bu, mənəvi saflığa və ədalətə çağırışdır. İslam təhsilinin, elminin və mədəniyyətinin dünya sivilizasiyasının formalaşmasında və inkişafında böyük rolu var. Bu səbəbdən də bəşəriyyətin ikinci həyat rişəsinin pərvəriş tapdığı Naxçıvanda zəngin tarixi-mədəni irs formalaşmışdır. Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, buzxana və hamamlar, köhnə məscidlər bu torpaqlarda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin nadir nümunələridir. Doğrusu, nə zaman Naxçıvana gəlsəm, çox duyğulanıram. Mən fürsətdən istifadə edərək qəzetiniz vasitəsilə naxçıvanlılara sevgi və ehtiramımı bildirirəm.

Digər müsahibim Ankara şəhərindən gələn ***Feysəl Coşar*** bildirdi ki, tarixboyu bəzi şəhərlər dini fəaliyyət baxımından əhəmiyyətli ünvanlar olmuşdur. Hər il dünyanın müxtəlif ölkələrindən minlərlə insanı qəbul edən Naxçıvan türk və İslam mədəniyyətinin mənəviyyat ünvanlarından biridir. Əmin idim ki, bu müqəddəs şəhəri ziyarət etmək məndə yaxşı təəssüratlar yaradacaq. Həqiqətən, Naxçıvan gözəl və maraqlı yerdir. Türkiyədəki dostlarıma deyərdim ki, əgər təsadüfən buraya gəlsəniz və eyni zamanda həyata keçirmək istədiyiniz bir arzunuz varsa, mütləq bu ziyarətgaha gəlib, burada dua edin. Burada insan sanki rahatlığa qovuşur. Doğrusunu desək, belə bir təbiət mənzərəsində ibadət etmək üçün barmaqla sayılacaq qədər yer vardır. Ziyarətgahda təmizliyə ciddi riayət olunması diqqətimi cəlb etdi. İnsanlar bu təmizliyin qorunmasına böyük səy göstərirlər. Məkandan çox zövq aldım və belə bir dini bünövrəsi olan əraziyə səfər etdiyim üçün çox xoşbəxtəm.

İran İslam Respublikasının vətəndaşı ***Saffiyə Zərgəri***: – Yeddi qeyb olanın mağarası olaraq da bilinən Əshabi-kəhfi ziyarət etməyə gəldik. Deyərdim ki, Əshabi-kəhf Naxçıvanın görməli yerləri sırasında birinci olmalıdır. Hətta belə bir deyim var ki, Əshabi-kəhfi 7 il dalbadal ziyarət etmək Kərbəla, hətta Həcc ziyarətinə bərabərdir. Yəni həmin ziyarətgahlara gedə bilməyənlər Əshabi-kəhfdə olmaqla savaba çata bilərlər. Burada öyrəndim ki, Naxçıvanda ali dini təhsil almaq da mümkündür. Ziyarətimiz maraqlı keçdi. Namaz qıldıqdan sonra kompleksdəki hədiyyəlik mağazalarına baş çəkib yaxınlarıma kiçik hədiyyələr də aldım. Bir daha şahidi oldum ki, Naxçıvanda hər zaman dinin düzgün çatdırılmasına önəm verilir və bu sahədə maarifçilik işləri aparılır.

Təbrizdən olan ***Həbib Məhəmmədi*** dedi ki, Naxçıvan müqəddəs şəhərdir. Bütün insanlara buranı görməyi tövsiyə edirəm. İnsanlar min illərdən bəri yaddaşlarında əbədiləşən müqəddəs ziyarətgahlara etdikləri səfərlərlə dünyadakı ən savab işlərdən onlara da pay düşdüyünə inanırlar. Naxçıvanın dünyaca tanınmış müqəddəs Əshabi-kəhf ziyarətgahına gələn zəvvarların əsl qazancı budur. Əgər duaların Allaha çatdığı yerdə, Peyğəmbər ayağının toxunduğu torpaqda inanclarını daha da dərinləşdirib Uca Yaradana daha yaxın bir yerdən xitab etmək istəyənlər varsa, Əshabi-kəhfə gəlsinlər.

*Həmsöhbət olduğum qonaqların burada gördüklərindən aldıqları təəssüratlar məni də xeyli qürurlandırdı ki, doğma Naxçıvanda belə bir müqəddəs ünvan var. Burada yaradılan şərait, təmizlik və səliqə-sahman, zəvvarlara göstərilən qonaqpərvərlik və yüksək xidmət isə dini-mənəvi dəyərlərimizin qorunub yaşadılmasına dövlət qayğısının bariz ifadəsi kimi ziyarətçilərdə ikiqat mənəvi hüzur, nikbin ovqat, qədim və ulu diyarımız haqqında unudulmaz xoş təəssürat formalaşdırır.*

**✍ Aytac CƏFƏRLİ**

## Yaşıllıq ərazilərinə aqrotexniki qulluq davam etdirilir

*Hər ilin yaz və payız mövsümlərində həyata keçirilən aqrotexniki tədbirlər mühüm ekoloji əhəmiyyət kəsb edir.*



İyunun 4-də keçirilən növbəti belə kütləvi tədbirlərdə də yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib. Belə ki, Naxçıvan şəhərinin sakinləri Uzunoba Su Anbarının yaxınlığındakı terrasda, müəssisə və təşkilatların yaşıllıq sahələrində, şərurlular Naxçıvan-Sədərək magistral yolunun Yuxarı Daşarx və Zeyvə kəndləri hissəsində yol kənarlarındakı yaşıllıqlara qulluq ediblər. Babəklilər Naxçıvan-Ordubad magistral yolunun Çeşməbasar kəndi hissəsində və Naxçıvan-Şahbuz magistral yolunun Xalxal kəndi hissəsindəki, ordubadlılar 1,5 hektarlıq ərik bağında və turizm əhəmiyyətli kəndlərə gedən yolların kənarlarındakı hissələrdə yaşıllaşdırma və abadlıq işləri aparıblar. Culfalılar rayonun yaşıllıq ərazilərində, Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək avtomobil yolunun Böyükdüz kəndi hissəsində və Qıvraq-Püsyan avtomobil yolunun kənarlarındakı bağlarda, həmçinin orta məktəblərin ərazilərində, şahbuzlular yaşıllıq sahələrində, sədərəklilər Heydərabad qəsəbəsindəki 4, Dəmirçi kəndindəki 2 hektarlıq bağlarda və Gömrük məntəqəsinə gedən yolun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərib, təmizlik və suvarma işləri aparıblar.

Həmin gün Naxçıvan şəhərində ahıl vətəndaşın evində təmizlik işləri görülüb.

Aqrotexniki qulluq tədbirlərində 17 min 955 nəfər iştirak edib.

**Xəbərlər şöbəsi**

*İdman*

## Şəhər birinciliyi başa çatıb



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində yeniyetmələr (2008-2009-cu illər) arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan idmançıları ilə yanaşı, Şərur, Kəngərli, Ordubad, Sədərək və Babək rayonlarının idmançıları da mübarizə aparıb. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 13 çəki dərəcəsində 60 dəri əlcək sahibi qüvvəsini sınayıb.

Birinciliyin yekun nəticəsinə əsasən Əli Əbilov (37 kiloqram, Kəngərli), Fikrət Abbasov (40 kiloqram, Kəngərli), Məhəmməd Məmmədov (42 kiloqram, Şərur), Qafar Abbasov (44 kiloqram, Naxçıvan), Emil Kazımlı (46 kiloqram, Naxçıvan), Haqverdi Həsənov (48 kiloqram, Naxçıvan), Qurban Həsənli (50 kiloqram, Kəngərli), İlkin Həsənli (52 kiloqram, Kəngərli), Murad Babazadə (57 kiloqram, Naxçıvan), Fuad Əhmədov (60 kiloqram, Naxçıvan), Sarvan Abdullazadə (63 kiloqram, Sədərək), Əli Abdullazadə (70 kiloqram, Naxçıvan) və Kənan Allahverdiyev (75 kiloqram, Naxçıvan) bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan atleti ölkə çempionatını uğurla tamamlayıb



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda atletika üzrə 93-cü ölkə çempionatı keçirilib. 2-3 iyun tarixlərini əhatə edən çempionatda iştirakçılar nizəatma, hündürlüyə tullanma, uzunluğa tullanma, üç təkanla tullanma, lövhəatma, nüvə itələmə, 100, 200, 400, 800, 1500 və 3000 metr məsafəyə qaçış növləri üzrə yarışıblar.

Naxçıvan Atletika Federasiyasının idmançısı Əmrah Nağıyev 1500 metr məsafəyə qaçış növündə 4 dəqiqə 28.09 saniyəlik göstərici ilə ikinci olub. 3000 metr məsafədə isə atletimiz bütün rəqiblərindən öndə olub. 9 dəqiqə 45.10 saniyə ərzində finişə çatan Əmrah qızıl medala layiq görülüb.

Xatırladaq ki, Əmrah Nağıyev son 2 ay ərzində bir sıra uğurlar qazanıb. Atletimiz "Bakı Marafonu-2022"-də (21 kilometr) 2399 idmançı arasında 19-cu, "Parlaq gələcək naminə qaç!" marafonunda 3 2022"-də (21 kilometr məsafə üzrə birinci, Əməkdar məşqçi Əfqan Səfərovun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə isə qızıl və gümüş medalçı olub.

## I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib

İyunun 5-də Dövlət İmtahan Mərkəzi tərəfindən I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. Respublikanın 12 şəhər və rayonunda təşkil olunan imtahanda 16 min 786 abituriyent iştirak edib. İmtahanın keçirilməsi üçün 70 imtahan binası, 1262 zal ayrılıb. İmtahanların idarə olunmasına 70 ümumi imtahan rəhbəri, 211 imtahan rəhbəri, 1557 nəzarətçi-müəllim, 188 buraxılış rejimi əməkdaşı, 70 bina nümayəndəsi cəlb edilib.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhər 5, 11, 14 nömrəli tam orta məktəblərin binalarında təşkil edilib. İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. 69 zalda keçirilən imtahanda 836 abituriyent iştirak edib. İmtahanın idarə olunmasına 11 rəhbər, 83 nəzarətçi ayrılıb.

İmtahan nəticələri yaxın 2 həftə ərzində elan olunacaq.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Növbəti təmizlik aksiyası

5 iyun – Ətraf Mühitin Mühafizəsi Günü ilə əlaqədar Babək rayonu ərazisində yerləşən



Güznüt gölü ətrafında təmizlik aksiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi tərəfindən birgə təşkil olunan aksiya "Gənclər ətraf mühitin çirklənməsinə yox deyir!" devizi ilə reallaşıb.

Aksiyada zəruri sanitar ləvazimatlarla təmin olunan gənclər tullantıları sahələrdən toplayıb, ətrafda səliqə-sahman yaradıblar.

## İdmançımız dünya çempionatında 2 medal qazanıb



Özbəkistanın Daşkənd şəhərində universal döyüş üzrə dünya çempionatı keçirilib. Ölkəmiz çempionatda 20 nəfərlik heyətlə təmsil edilib. Həmin heyətdə Naxçıvan Kikboksinq Federasiyasının idmançısı Sadiq Kərimov da olub. 14-15 yaşlılar arasında 50 kiloqram çəki dərəcəsi üzrə mübarizə aparan idmançımız "Light" və "Classic" versiyalarda çıxış edib. Sadiq hər iki versiyada bürünc medal qazanmaqla mükafatçılar sırasına düşüb.

Xatırladaq ki, Sadiq Kərimov bu yarışadək dünya kuboku və çempionatının qalibi olmağı bacarıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Qasımov Yunis Nağı oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayon sakini Məmmədov Tağı Məmməd oğlunun adına olan minik avtomobilinin dövlət nömrə nişanı (68 BH 098) itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 497